# Dövlətimizin və xalqımızın xilaskarı

**Azərbaycan dövlət müstəqilliyini 1991-ci ilin oktyabrında bərpa etsə də, həmin vaxt xalq bu müstəqilliyinin şirinliyini dada bilməmişdi. Ermənistanın Azərbaycana ərazi iddiaları, hakimiyyət uğrunda didişmələr müstəqilliyimizi təhlükə altına almışdı. Demək olar ki, hər gün şəhər və kəndlərimiz işğal edilir, dünyanın nüfuzlu dövlətləri və təşkilatları isə Ermənistanın bu haqsız işinə göz yumurdular.**



1993-cü ilin iyununa qədər Azərbaycanın taleyi, demək olar ki, naməlum idi. Həmin ilin iyununda baş verən Gəncə hadisələri isə acınacaqlı vəziyyətdə olan Azərbaycanı daha da ağır duruma saldı. Ölkədə vətəndaş müharibəsinin ilk əlamətləri görünürdü, hakimiyyətin idarəetmə gücü yox idi. Qiyamçı dəstələr yerlərdə hakimiyyəti ələ keçirir, düşmən ölkəmizin kənd və şəhərlərini işğal edir, əhali köçkünə çevrilirdi. Belə bir dövrdə xalqımız Heydər Əliyevə müraciət etdi. Vətəndaşlarımız hər zaman olduğu kimi, həmin ağır dönəmdə də doğru qərar verməyi bacardı və bu, Azərbaycanımızın gələcəyinə, belə demək mümkündürsə, işıq tutdu.

Ulu Öndər Heydər Əliyev xalqın dərin inamını qazanmış lider idi. 1990-cı ildən Naxçıvana gələn Heydər Əliyev blokada vəziyyətində olan bu bölgəni müdafiə etməyi bacarmış, düşmən hücumlarının qarşısını almışdı. Yəni belə bir şəxsiyyət Azərbaycanı da ağır bəladan qurtara bilərdi.

Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlişi xalqda yüksək ruh yaratdı. Ulu Öndər ölkədəki vəziyyəti dərindən təhlil etdi. O yaxşı başa düşürdü ki, hadisələrə dəqiq qiymət verə bilməsi üçün baş verənləri öz gözləri ilə görməli, şahidi olmalıdır. Ona görə də xalqının xoşbəxt gələcəyi naminə həyatını təhlükə altına ataraq Gəncəyə gedib vəziyyəti yerində öyrəndi, vətəndaş müharibəsini aradan qaldırdı. Beləliklə, Ulu Öndərin 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri kimi fəaliyyətə başlaması dövlətimizin və xalqımızın qurtuluşuna səbəb oldu. Heydər Əliyevin tarixi qayıdışı Azərbaycanı ağır bəlalardan xilas etdi. Ümummilli Lider xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi.

1993-cü ilin iyunun əvvəlləri Azərbaycan xalqı üçün nə qədər kədərli olsa da, iyunun 15-dən sonra taleyimiz dəyişdi. Heydər Əliyevin hakimiyyətə gəlişi xalqımızı və dövlətimizi möhtəşəm inkişaf yoluna çıxardı.

*Anar İSGƏNDƏROV,*
*Milli Məclisin deputatı*

Azərbaycan. - 2023.- 15 iyun.- S.16.